

# Ülvi Şəfaət oğlu Mehdiyev – 75 il!

2021-ci il noyabr ayının 8-də tanınmış geoloq-alim, bacarıqlı təşkilatçı, geologiya-mineralogiya elmləri doktoru, əməkdar mühəndis, Prezident təqaüdçüsü Ülvi Mehdiyevin 75 yaşı tamam oldu.

O, 1963-cü ildə orta məktəbi bitirdikdən sonra M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) geoloji kəşfiyyat fakültəsinə daxil olmuşdur.

1968-ci ildə dağ mühəndisi – geoloq ixtisasına yiyələnən Ü.Ş. Mehdiyev N.Nərimanov adına NMİ-nin geoloji şöbəsində geoloq və böyük geoloq vəzifələrində çalışmışdır. 1970-ci ildən AzNKİ-nin "Neft və qaz yataqlarının geologiyası və kəşfiyyatı" kafedrasında qiyabi aspirant kimi təhsil alan Ü.Mehdiyev 1973-cü ildə "Laylararası axınlar və onların neft-qaz yataqlarının sularının ion-duz tərkibinin formalaşmasına təsiri (Azərbaycanın bir sıra yataqlarının timsalında)" mövzusunda dissertasiya işini müdafiə edərək geologiya-mineralogiya elmləri namizədi alimlik dərəcəsini almışdır.

Ü.Mehdiyev 1971–1972-ci illərdə Ümumittifaq Elmi-Tədqiqat Təbii Qazlar İnstitutunda mühəndis, 1972–1992-ci illərdə Azərbaycan Elmi-Tədqiqat Su Problemləri İnstitutunda "Tətbiq və iqtisadi tədqiqatlar" şöbəsinə, "Hidrokimyəvi tədqiqatlar", "Suların keyfiyyətinin proqnozu və idarə olunması" laboratoriyalarına rəhbərlik etməklə yanaşı, elə həmin illərdə əvəzçilik əsasında AİMİ və AzNKİ-də pedaqoji fəaliyyət göstərmişdir. 1992–2002-ci illərdə Azərbaycan Elmi-Tədqiqat Geofizika İnstitutunda böyük elmi işçi, "Dənizneftqazlayihə" DETLİ-də aparıcı elmi işçi, şöbə müdiri vəzifələrində işləmişdir. 2002–2009-cu illərdə SOCAR-ın "Elmi tədqiqatlar" İnstitutunun direktoru və 2009–2014-cü illərdə yeni yaradılmış "Neftqazelmitədqiqatlayihə" İnstitutunda direktorun Beynəlxalq layihələr və xarici əlaqələr üzrə müavini vəzifələrində çalışmış, hal-hazırda isə həmin institutda direktorun geologiya üzrə müşaviridir. 2009-cu ildə "İntensiv çökən hövzələrdə subasqılı sistemlərin formalaşması və onların neftqazlılığı (Cənubi Xəzər çökəkliyinin Pliosen kompleksinin timsalında)" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

Ü. Mehdiyev "Azərbaycan neft təsərrüfatı", "Azərbaycan Milli Elmlər Akademiyasının məruzələri və xəbərləri", AzNKİ və BDU-nun elmi əsərləri, "Sovetskaya geologiya" kimi ciddi nəşrlərdə dərc olunmuş 140-a yaxın elmi işin, o cümlədən "Azərbaycanın neft-qaz və qaz-kondensat yataqlarının yeraltı suları üzrə sorğu kitabı" (1976), "AzNQSDETLİ tarixi məqamlar" (2004), "Abşeron neftli-qazlı rayonu Qala və Qırməkialtı lay dəstələri süxurlarının litoloji-petroqrafik xüsusiyyətləri və kollektor xassələri" (I cild, 2007) və "Abşeron neftli-qazlı rayonu Qırməki və Qırməkiüstü lay

dəstələri süxurlarının litoloji-petroqrafik xüsusiyyətləri və kollektor xassələri" (II cild, 2008), "Azərbaycan yataqlarında neftverimini artıran mikrobioloji metodların tətbiq təcrübəsi" (2008), Azərbaycanın geologiyası (VII cild), "Neft və qaz" (2008), "Azərbaycan neft yataqlarında istilik-təsir üsullarının tətbiq təcrübəsi" (2011), "Abşeron yarımadasının neft-qaz-kondensat yataqlarının hidromineral resursları" (2013) monoqrafiyalarının və 12 patentin müəlliflərindən biridir.

Ülvi Mehdiyevin elmi nəşrlərinin mövzuları geniş spektrli tədqiqat sahələrini – təbii suların keyfiyyəti və onların çirklənməsinin ekoloji nəticələri, lay sularının yatma şəraiti və genezisi, fərqli tərkibə malik lay sularının əmələ gəlməsində qırılma pozulmalarının rolu, neftlərin tərkibi və tiplərinin dəyişməsinin əsas qanunauyğunluqları, layların neftveriminin artırılmasında müasir üsulların tətbiq təcrübəsi, suların kimyəvi tərkibinin neftin sıxışdırılmasına təsiri, neftli-qazlı komplekslərin termobarik şəraitləri, hidrogeoloji və hidrokimyəvi xüsusiyyətləri, neft-qaz geologiyası və hidrogeologiyasının digər əhəmiyyətli məsələlərini əhatə edir. Onun "Vışka","Respublika", "Azərbaycan", "Bakinskiy raboçiy" qəzetlərində dərc edilmiş məqalələri, müsahibələri deyilənlərə sübutdur.

Ü. Mehdiyev dəfələrlə ölkə hüdudlarından kənarda etdiyi məruzə və çıxışlarında Azərbaycan elmini layiqincə təmsil etmişdir. O, Respublikanın ictimai-siyasi həyatında da həmişə fəal iştirak etmişdir. Bunların bariz nümunəsi kimi, onun müxtəlif dövrlərdə SOCAR-ın "Elmi tədqiqatlar" İnstitutunun elmi şurasının sədri, Xəzər dənizinin Azərbaycan sektorunda Şahdəniz perspektivli sahəsi üzrə kəşfiyyat, işlənmə və hasilatın pay bölgüsü haqqında saziş üzrə Azərbaycan tərəfindən rəhbər komitənin nümayəndəsi, Avropa Yer Elmləri Alimləri və Mühəndisləri Assosiasiyasının, SOCAR-ın elmi-texniki şurasının, Azərbaycan Milli Neft Komitəsinin, "Azərbaycan neft təsərrüfatı" jurnalının redaksiya heyətinin və hal-hazırda AMEA-nın Geologiya və Geofizika İnstitutunun nəzdində D. 01.81. Dissertasiya Şurasının üzvü kimi fəaliyyət göstərməsi qeyd edilməlidir.

Ülvi Mehdiyev 2003-cü ildə Beynəlxalq Mühəndislik Akademiyasının müxbir üzvü seçilmişdir. O, 2006-cı ildə 60 illik yubileyi münasibətilə SOCAR-ın Fəxri fərmanı ilə təltif olunmuşdur. 2011-ci ildə 20 sentyabr – Neftçilər günü ərəfəsində Prezident İlham Əliyevin sərəncamına əsasən, Azərbaycanın neft sənayesi sahəsində səmərəli fəaliyyətinə görə Ü.Mehdiyev "Əməkdar mühəndis" fəxri adına, 2016-cı ildə isə Prezidentin fərdi təqaüdünə layiq görülmüşdür.

Təmizqəlbli, səmimi insan olan Ülvi müəllim öz ailəsi, qohumları, dostları və həmkarları arasında böyük hörmət qazanmışdır.

**Hörmətli Ülvi müəllim!**

Sizə möhkəm cansağlığı, ailə səadəti və elmi fəaliyyətinizdə uğurlar arzulayırıq.

**"Azərbaycan neft təsərrüfatı" jurnalının**
**redaksiya heyəti və kollektivi**